**Ümumi məlumat**

Bitki Karantini və Mühafizəsi üzrə Avropa və Aralıq Dənizi Təşkilatı (eng. European and Mediterranean Plant Protection Organization – EPPO) bitki sağlamlığı sahəsində Avropa və Aralıq dənizi regionu üzrə əməkdaşlığın və tənzimləmələrin uyğunlaşdırılmasını təmin edən beynəlxalq hökumətlərarası təşkilatdır və Beynəlxalq Bitki Mühafizəsi Konvensiyasının (IPPC) IX maddəsinə əsasən, Avropa-Aralıq dənizi regionu üzrə Regional Bitki Mühafizəsi Təşkilatı (RPPO) funksiyasını yerinə yetirir.

Təşkilatın yaradılmasına dair Konvensiya 1951-ci il 18 aprel tarixində Paris şəhərində imzalanmışdır, sonuncu əsas dəyişikliklər 1999-cu ilin sentyabr ayında qəbul olunmuş və bu dəyişikliklər IPPC-də edilmiş son islahatlarla uyğunlaşdırılmışdır.

EPPO yalnız dövlətləri üzv kimi qəbul edən hökumətlərarası təşkilatdır. Üzvlük haqları da üzv ölkələrin hökumətləri tərəfindən ödənilir. Təşkilat 1951-ci ildə 15 üzv ölkə ilə fəaliyyətə başlasa da, bu gün artıq 52 ölkə EPPO-ya üzvdür. Üzvlər arasında Avropa İttifaqının bütün üzv dövlətləri və eləcə də keçmiş SSRİ-yə daxil olmuş bəzi Asiya ölkələri yer alır.

Azərbaycan Respublikası “Bitki Karantini və Mühafizəsi üzrə Avropa və Aralıq Dənizi Təşkilatının yaradılması haqqında" Konvensiyaya qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanununa əsasən 2007-ci ildən EPPO-nun üzvüdür.

Azərbaycan, EPPO-nun texniki orqanlarında təmsil olunur və bitki sağlamlığı sahəsində beynəlxalq əməkdaşlığın və standartlaşdırmanın gücləndirilməsinə töhfə verir.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi EPPO üzrə ölkəmizin rəsmi əlaqələndirici qurumu (official contact point) qismində çıxış edir. https://www.eppo.int/ABOUT_EPPO/member_country_AZ